# Bacılar üçün Həcc bələdçisi

*Şəxsi təcrübə əsasında hazırlanmışdır və peşəkar deyil*

# Bacılar üçün Həcc bələdçisi

Bismilləhir Rahmənir Rahim!

Allahdan bu qısa bələdçinin Həccə və Ümrəyə hazırlaşan bacılarım üçün xeyirli və lazımlı olmasını diləyirik.

Əziz bacılar!

Bizim Həcc ziyarətimiz zamanı sırf bacılarla bağlı olub, amma ana dilimizdə cavablarının toplandığı bir yazı, yaxud kitab olmamasını nəzərə alaraq, bu praktik vəsaiti hazırlamaq qərarına gəldik.

Nəzərinizə çatdıraq ki, Həcc və Ümrə ziyarəti ilə bağlı Azərbaycan dilində qaydalar və duaların olduğu bələdçilər mövcuddur.

Yazdıqlarımız həmin bələdçilərdən, eyni zamanda bilavasitə Həcc zamanı səhih mənbələrdən öyrəndiyimiz məlumata əsaslanır, və təbii ki, xətaların olması istisna edilmir. Buna görə Allahdan bağışlanma diləyirik.

Bələdçinin praktik olması üçün onu sual & cavab formasında hazırlamağa qərar verdik.

Sual 1: Azərbaycandan gedən zəvvarlar İhrama harada girirlər?

Sual 2: Azərbaycanlı zəvvarlar ihram geyimini nə zaman geyinirlər?

Sual 3: İhrama girməzdən əvvəl hansı əməllər edilir?

Sual 4: Miqata çatdıqda nə edilir?

Sual 5: Qadınlar ihram paltarını dəyişə bilərlərmi?

Sual 6: Ümrəyə yaxud həccə məhrəmsiz getmək olarmı?

Sual 7: Həcc zamanı namazlar necə qılınır?

Sual 8: İrhamda olarkən qadınlara hansı əməlləri etmək olmaz?

Sual 9: İhramda olarkən niqab taxmaq olarmı?

Sual 10: Ətirsiz vasitələri Bakıda tapmaq mümkündürmü?

Sual 11: Ümrənin rükunları hansılardır?

Sual: 12 Təvaf zamanı azan verilərsə nə edilməlidir?

Sual 13: Haram məscidində Məscid namazı qılınırmı?

Sual 14: Ümrə ihramından çıxdıqdan sonra hansı əməllərə icazə verilir?

Sual 15: Həcc zamanı heyzin vaxtını gecikdirmək üçün dərman vasitələrində istifadə etmək olarmı?

Sual 16: Ümrə ihramına girdikdən sonra heyz görən baci nə etməlidir?

Sual 17: Ümrəni bitirdikdən sonra Haram məscidinə getmək olarmı?

Sual 18: Həcc niyyəti nə zaman edilir?

Sual 19: Minaya gedərkən özunuzlə nə götürmək lazımdır?

Sual 20: Mina vadisinə gedərkən heyzli qadınlar nə etməlidirlər?

Sual 21: Minada namazlar necə qılınır?

Sual 22: Həccin ehkamları hansılardır?

Sual 23: Ərafat dağında edilən ibadətlər hansılardır?

Sual 24: Ərəfəyə getməmək olarmı?

Sual 25: Ərafatdan nə zaman gedilir?

Sual 26: Müzdəlifədən nə zaman çıxılır və hara gedilir?

Sual 27: Bayram günü, yəni Zülhiccənin 10-cü günü hansı əməllər edilir?

Sual 28: Bayram günü heyzli bacılar hansı əməlləri edirlər?

Sual 29: Təşriq günləri nədir və əməlləri hasılardır?

Sual 30: Zülhiccənin 12-ci gecəsi Minada qalmaq şərtdirmi və 13-cü gün hansı əməllər edilir?

Sual 31: Vida təvafı nədir?

Sual 32: Əgər heyz müddəti uzanarsa və ümrə edilməyibsə, ehkamlar necə yerinə yetirilir?

Faydalı qeydlər

Sual 1: Azərbaycandan gedən zəvvarlar İhrama harada girirlər?

Cavab: Azərbaycanlıların ihrama girmə məqamı, yəni Miqat təyyarədə olarkən olur. Miqata çatmazdan az öncə qrup rəhbərləri bu barədə xəbər verirlər.

Sual 2: Azərbaycanlı zəvvarlar ihram geyimini nə zaman geyinirlər?

Cavab: İlk öncə onu qeyd edim ki, ihram geyimi (yəni tikişsiz 2 hissədən ibarət geyim) sırf kişilərə aiddir. Qadınlar İslamın qaydalarına uyğun (Yəni dar olmayan, şəffaf olmayan, cəzbedici olmayan və s.) istənilən geyim İhramdır. Rahatlıq olsun deyə, ihram paltarını evdə geyinmək olar. Əks təqdirdə İhram paltarı hökmən Miqata yetişənə qədər geyinilməlidir.

Sual 3: İhrama girməzdən əvvəl hansı əməllər edilir?

Cavab: İhrama girməzdən (yaxud bizim halımızda ihram paltarını evdə geyinməzdən əvvəl) qüsl almaq, dırnaqları tutmaq yaxşıdır.

Sual 4: Miqata çatdıqda nə edilir?

Cavab: Miqata yaxınlaşmağımız təyyarədə elan edildikdə, biz niyyətimizi edirik. Həccin 3 növü var, və zəvvar edəcəyi həccə uyğun da niyyət edir. Azərbaycanlı zəvvarlar adətən həm həcc, həm ümrə etdiklərindən, ilk öncə yəni Miqata girməzdən əvvəl Ümrə üçün niyyət edirlər və "Ləbbeykə Umratən" deyirlər. Miqatdan sonra niyyət etmək olmaz! Əgər müəyyən səbəblərdən niyyət edilməyibsə, ya miqat nöqtəsinə geri qayıdılması, yaxud da kəffarə olaraq bir qurban kəsilib Məkkə yoxsullarına paylanmalıdır

İhrama girdikdən ta Məkkəyə qədər "Ləbbeykə"[1] duasını oxumaq lazımdır. Qadınlar duanı asta səslə oxuyurlar.

Sual 5: Qadınlar ihram paltarını dəyişə bilərlərmi?

Cavab: Bəli, qadınlar ihramda olarkən paltarlarını istənilən paltara dəyişə bilərlər. Eyni zamanda qapalı, yəni kişilərin olmadığı yerdə yenə İslami qaydalara uyğun daha rahat paltar geyinə bilərlər (məsələn, pajama kimi)

[1] Ləbbeyk Allahummə,Ləbbeyk. Ləbbeykə Lə Şərikə Ləkə Ləbbeyk. İnnəl Hamdə vəl nimətə ləkə vəl mulk. Lə şərikə lək

Sual 6: Ümrəyə yaxud həccə məhrəmsiz getmək olarmı?

Cavab: İslamı qaydalara görə qadın təkbaşına səfərə çıxa bilməz və Həcc, yaxud Ümrə də səfər sayılır. Belə edən qadının həcci qəbul olmuş olsa belə, böyük günah qazanır, o səbəbdən edilməməsi doğrudur.

Sual 7: Həcc zamanı namazlar necə qılınır?

Cavab: digər səfərlərdə olduğu kimi, Həcc zamanı da namazlar Sünnətə uyğun qısalır, yəni 4 rəkətli namazlar 2 rəkət qılınır. Eyni zamanda namazları birləşdirib də qılmaq olar. Məsciddə namaz qilarkən isə imama tabe olaraq namazlar tam qılınır. Səfər zamanı sünnət namazları qıılnmır, yalnız Fəcr (sübh) namazının sünnəti istisnadır. Eyni zamanda səfərdə duha, gecə namazlarını da qılmaq olar.

Sual 8: İrhamda olarkən qadınlara hansı əməlləri etmək olmaz?

Cavab: İhramda olarkən bunların edilməsi haramdır:

- Cinsi əlaqədə olmaq ( o cümlədən qucaqlaşmaq, şəhvət yaradacaq digər hərəkətlər və s.)
- Dırnaq tutmag
- Saç kəsmək
- Dəridən və ya tüklərdən qoparmaq
- Ətir və ətirli vasitələrdən istifadə etmək (o cümlədən sabun, şampun, dezodorant, gigiyenik bezlər və s.)
- Ağac və ya bitki qırmag
- Ov ovlamaq
- Niqab yaxud əlcək taxmaq

Bunların bəzilərini etmək asan olsa da, xüsusən dəri və tükü qoparmaq vərdişə bağlı olduğunda qəliz ola bilər. Şəxsən mən bir neçə dəfə dodaq dərisinin qoparmağımla bağlı problem yaşadım. Əgər dəri, tük və dırnaq problem və narahatlıq yaradırsa (məsələn dirnaq yanından çıxıbsa, yaxud dodaq dərisi qopubsa) o zaman onların kəsilməsində bir problem yoxdur. Artıq tüklərin tökülməməsi üçün saçları toplayıb, bir az bərk yığaraq ihram zamanı onları daramamağa çalışılmalıdır.

Eyni zamanda bilmədən yaxud yaddan çıxararaq bu əməlləri edənlərə günah yoxdur. Lakin bilərəkdən edənlər kəffarə olaraq bir qoyun kəsib Məkkə yoxsullarına paylamalıdırlar.

Sual 9: İhramda olarkən niqab taxmaq olarmı?

Cavab: Bütün rəylərə görə ihramda olarkən niqab taxmaq olmaz və yalnız ihramdan çıxdıqdan sonra niqab taxmaq olar. Lakin Peygəmbərimizdən (SAllahu aleyhi və Səlləm) gələn hədisdə o Aişə (r.a) ihramda ikən kişilərin yanından keçərkən nigabını üzünə atmağı söyləmişdir. Bu hədisdən çıxış edərək, niqablı bacılar üzlərinə niqabın yalnız bir hissəsini (yəni 3 hissədən 1-ni) atırlar, çünki Peygəmbərimizin (SAllahu aleyhi və Səlləm) zamanından fərqli olaraq, indi Həccdə insan sayı çoxdur və kişilərlə hər an qarşılanma baş verir

Sual 10: Ətirsiz vasitələri Bakıda tapmaq mümkündürmü?

Cavab: Bəli, böyük marketlərdə ətirsiz Rusiya istahsalı sabunlar var. Ətirsiz qoltuqaltı dezodorantlar isə Müslim Shop mağazalarından tapmaq olar.Qiyməti təqribən 4-5 AZN çərçivəsindədir

Sual 11: Ümrənin rükunları hansılardır?

Cavab: Məkkəyə çatdıqdan sonra ilk öncə zəvvarlar otelə gedib əşyalarını qoyurlar. Otaqlarda yalnız qadınlar yaxud yalnız kişilər olur. Qadınların bu zaman çimib paltarlarını dəyişməsində heç bir problem yoxdur.

Bundan sonra qrup rəhbərləri ilə birgə (yaxud qaydaları bilən özü tək də gedə bilər) Kəbəni təvaf etməyə gedilir. Kəbəyə gedərkən "Məscid duasını" oxumaq yaxşıdır. Haram Məscidinə sağ ayaqda daxil oluruq (digər məscidlər kimi) və bu duanı oxyuruq: "*Əuzi Billəhi Azim və bil Vəchihil Kərim və sultanil Qadim, minəşşeytanirracim. Bismilləh vəs salətu vəs saləlu Rasulullah. Allahummə, iftəh li əbvəbə rahmətik*". Dua oxunmazsa ümrə rükunlarına bir xələl gətirmir və günah qazandırmır. Kəbəyə yaxınlaşanda artıq Təlbiyyə (Ləbbeyk) deməyi dayandırırıq.

Təvaf (1-ci rükun) Qara daşdan başlanılır və onda da bitir. Təvafa başlarkən *"Allahummə, iymənən bikə və təsdiqən bi kitabikə və vəfəən bi ahdikə və ittibəən li sunnəti nəbiyyikə Muhamməd*" duasını oxumaq yaxşıdır.

Təvaf zamanı dəstəmazlı olmaq şərtdir.

Təvafa başlarkən üzünü qara daşa tutaraq, əl ilə işarə edilir və "*Allahu Əkbər*" deyilir. Ən yaxşı halda qara daşa yaxın düşmək şansı olarsa, onu öpmək sünnətdəndir, lakin bunu insanlara əziyyət verərək etmək olmaz.

Təvaf 7 dövrədən ibarətdir. İlk dəfə təvaf edərkən (yəni Məkkəyə gəldikdən sonra ilk təvaf) ilk 3 dövrə iti, qalan 4-ü isə adı yerişlə edilir. Qara daşı görməyə imkanı olmayanda

sağ tərəfdə yerləşdirilmiş yaşıl işıq vasitəsi ilə qara daşa çatıb-çatmadıqlarını təyin edirlər. Hər dəfə qara daşa çatdıqda, yəni yeni dövrəyə başladıqda əlini uzadaraq, "Allahu Əkbər" deyilməlidir. Sünnət budur, və başqalarının qara daşa öpücük göndərdiyini, 2 əllə salamladığını, artıq dualar etdiyini gördükdə təəccüblənməyin.

Qara daş yerləşən küncdən bir öncəki künc "Yəmən Küncü" adlanır. Yəmən küncünə yaxınlaşmaq imkanı olanlar ona yalnız toxunurlar (öpmək lazım deyil). Eyni zamanda uzaqdan Yəmən Küncünə əl ilə işarə də etmək lazım deyil. Yəmən Küncü ilə qara daş arasında "Rabbənə Ətinə fiddunyə hasənətən və fil Axirati hasənətn və qinə azəbənnər" duası oxunur.

Təvaf əsnasında istədiyiniz dua, istiğfar (yəni bağışlanma diləmək) və zikrlər oxuya bilərsiniz.

Mən tavaf dövrələrinin sayını sahv salmamaq üçün bir kağızda işarə edirdim.

Təvaf bitdikdən sonra İbrahim Məqamı deyilən yerdə (yaxud yer olmazsa başqa bir yerdə) 2 rəkətli namaz qılınır. Birinci rəkətdə "Kəfirun", ikinci də isə "İxlas" surələri oxunur. Həmin namazı qıldıqdan sonra dərhal qalxmaq yaxşıdır ki, hamiya namaz qılmağa yer olsun.

Bundan sonra haram məscidinin hər yerində olan Zəm-Zəm suyundan içilir. Qeyd edim ki, xəstələr və boğaz problemli insanlar üçün isidilmiş Zəm-Zəm suyu da təşkil edilib və o "not-cold" nişanı ilə işarələnib.

Təvafdan sonra Səfa və Mərvə dağları arasında Səy adlandırılan rükun (2-ci rükun) yerinə yetirilir. Səy üçün dəstəmazən olması şərt deyil. Səy Səfa dağında başlanır. Səfaya çatdıqda "*İnnəs Səfa vəl Mərvətə şəsairİlləh*" daha sonra isə "*Abdəhu bimə bədəAllahu bihi*" deyilir. Səfa üzərinə qalxaraq (sağ tərəfə doğru) "*Əlhamdulilləh*" deyilir və bu dua oxunur: "*Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər! Lə İləhə İlləllah vəhdəhu və şərikə lək. Ləhul Mulku və ləhul hamdu yuhyi və yumit və huvə alə şəy"in qadir. Lə iləhə İlləllahu vəhdəhu lə şərikə Ləhu əncəzə vədəhu və nəsəra abdəhu və həzəməl əhzabə vəhdəhu".* Bundan sonra istənilən duanı edə bilərsiniz. Bu dua Səfa üzərində 3 dəfə təkrar olunur.

Bundan sonra Mərvəyə tərəf gedilir. Həmin dəhlizdə tavanda yaşıl işıqlar görəcəksiniz. Kişilər 2 yaşıl işıq arasındakı məsafəni qaçaraq getdikləri halda qadınlara bu şamil edilmir. Mərvəyə çatdıqda Səfa üzərində edilənlər təkrarlanır.[2]

---

[2] "*Əlhamdulilləh*" deyilir və bu dua oxunur: "*Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər! Lə İləhə İlləllah vəhdəhu və şərikə lək. Ləhul Mulku və ləhul hamdu yuhyi və yumit və huvə alə şəy"in qadir. Lə iləhə İlləllahu vəhdəhu lə şərikə Ləhu əncəzə vədəhu və nəsəra abdəhu və həzəməl əhzabə vəhdəhu".* Bundan sonra istənilən duanı edə bilərsiniz. Bu dua Səfa üzərində 3 dəfə təkrar olunur

Səy dəhlizi 7 dəfə gedib-gəlməklə bitir. Yəni səyə Səfada başlayıb, onu Mərvədə bitiririk. Səy zamanı, dəhlizdə hərəkət edərkən istədiyiniz duanı, istiğfar və zikri oxumaq olar.

Ümrənin 3-cü rükunu saç qısaltmaqdır. Təvaf və Səyi bitirdikdən sonra otelə qayıtdıqdan sonra qadınlar saçlarının ucundan qısaldırlar (1-2 sm qədər).

Bununla Ümrə ziyarəti bitmiş olur və ihramdan çıxılır.

Sual: 12 Təvaf zamanı azan verilərsə nə edilməlidir?

Cavab: Əgər təvaf zamanı azan verilərsə, olduğunuz yerdə imama uyaraq namazınızı qıılrsınız və sonra təvafa qaldığınız yerdən davam edirsiniz. Bu zaman önəmli olan təvafən dövrə sayını yadda saxlamanızdır.

Sual 13: Haram məscidində Məscid namazı qılınırmı?

Cavab: Haram məscidində Kəbənin təvafi 2 rəkətli məscid namazını əvəz edir və həmin namaza ehtiyac yoxdur. Lakin sonradan Haram məscidinə gələrkən məscid namazı qılmaq lazımdır (sünnətdir. Xatırladım ki, məscid namazını məsciddə oturmazdan öncə qılmaq lazımdır).

Sual 14: Ümrə ihramından çıxdıqdan sonra hansı əməllərə icazə verilir?

Cavab: Ümrə bitirdikdən sonra ətirli vasitələrdən istifadə, saç və dırnaq kəsmək olar.

Sual 15: Həcc zamanı heyzin vaxtını gecikdirmək üçün dərman vasitələrində istifadə etmək olarmı?

Cavab: Əgər sağlamlığınıza ziyanı yoxdursa, belə dərmanlardan istifadə etmək icazəlidir. Dərmanlar Məkkədə apteklərdə də satılır.

Sual 16: Ümrə ihramına girdikdən sonra heyz görən baci nə etməlidir?

Cavab: Ümrə niyyəti edib, ihrama girib, heyz səbəbi ilə ümrəni icra edə bilməyən bacı heyz zamanı bitənə qədər ihramda qalmış sayılır. Bu zaman bütün heyz müddəti ərzində ihramda haram olan əməllər ona qadağandır. Heyzin zamanı bitdikdən sonra bacı qüsl alır (ətirli vasitələrdən istifadə etməmək şərti ilə!) və ümrənin 3 rükununu yerinə yetirir. Bundan sonra o, ihramdan çıxa bilər.

Sual 17: Ümrəni bitirdikdən sonra Haram məscidinə getmək olarmı?

Cavab: Doğrusu, Haram məscidində qılınan namaz 100,000 adi namaz savabına barəbar olduğundan, adam belə şansı əldən buraxmaq istəmir. Lakin Sünnətə uyğun olan odur ki,

Peyğəmbərimiz (SAllahu aleyhi və Səlləm) ümrə ilə həcc arasında Haram məscidinə getməmişdir.

Sual 18: Həcc niyyəti nə zaman edilir?

Cavab: Zülhiccə ayının 8-i zəvvarlar Həcc ihramına girirlər. Yəni qüsl alıb, dırnaqlarını və artıq tükləri təmizlənir. Niyyət edilərək, "Ləbbeykə Həccən" (həcc üçün niyyət edirəm) deyilir. Bununla həcc ihramına girilmiş sayılır. Xatırladaq ki, ihrama 8-ci gün Zöhr namazına qədər girmək lazımdır. Həcc ihramı üçün Miqat elə qaldığınız yer (otel və s.) hesab olunur.

İhrama girdikdən sonra mütəmadi Təlbiyyə deyilir. Əlavə olaraq, "Ləbbeykə İləhəl Haqqı Ləbbeyk" də deyilə bilər.

Həmin gün Mina vadisinə yola düşülür və Zöhr namazına qədər Minaya çatılır. Bu zaman yol boyunca səs ucaltmadan (qadınlar) Təlbiyyə deyilir. Bir qeyd də edək ki, Təlbiyyəni kollektiv olaraq demək bidətdir.

Sual 19: Minaya gedərkən özunuzlə nə götürmək lazımdır?

Cavab: Mina vadisində təqribən 5 gün qalınır. Bu zaman qadınlar ayrı kişilər ayrı ən azı 12 nəfərlik çadırlarda qalırsınız. Bu çadırlarda yataq təmin olunur. Mina vadisinə gedərkən özünüzlə ən zəruri şeyləri yığaraq kiçik bağlamalar götürün, çünki son gün özünüzlə ayaqla daşımaq problem yaşaya bilərsiniz. Bağlamaya ən zəruri gigiyenik vasitələr (ətirsiz sabun, diş fırça və məcunu, bezlər, dəyişiklik alt paltar), ən az bir ədəd dəyişiklik geyim və hicab, hər ethimala qarşı bir isti jaket yaxud şal, bir dəsmal, telefon və şarj aparatı və lazımı dərmanları [3] götürün. Eyni zamanda kağız salfetlər, tualet kağızı da lazım olur. Minaya gedərkən özünüzlə aldığınız yatağı da (qubka döşək, otel ətrafından təqribən 30 real (15 AZN) alınır) götürməyi unutmayın.

Mina vadisində yemək təmin edilsə və ətrafda mağazalar olsa da, yaxşı olar ki, özünüzlə bir dəfəlik çay, stəkanlar və boşqablar, və bir az azuqə götürəsiniz. Ən azı ilk qalacağınız gün yeməyə ehtiyacınız olacaq (oteldə səhər yeməyi zamanı verilən birdəfəlik pendirlər, tahin halvası, çay-kofe, çox işə yarayır).

Çox önəmli bir qeyd də ondan ibarətdir ki, Mina vadisində qadın-kişi çadırları ayrı olsa da, təmizlik işlərinə baxan işçilər hamısı kişidir. Bəzən belə insanlar içindən çadıra boylananlar olur və məsləhətdir ki, çadırın ağzından içəridən daha bir örtük asasınız.

[3] Dərmanlarla bağlı son səhifədə daha geniş məlumat olacaq

Sual 20: Mina vadisinə gedərkən heyzli qadınlar nə etməlidirlər?

Cavab: Heyzli qadınlar səhər niyyət edərək, Mina vadisinə hər kəs kimi gedir, eyni zamanda namaz və təvaf xaric bütün ehkamları yerinə yetirirlər. Əgər Mina vadisində olduqları zaman heyz müddətləri bitərsə, qüsl alırlar və artıq təvaf və namaza da başlayırlar. Qüsl almaq üçün otelə dönmək lazım deyil və Minadakı tualetlərdə duş olduğundan oradaca qüsl almaq mümkündür.

Sual 21: Minada namazlar necə qılınır?

Cavab: Mina vadisində namazlar səfərdə olduğu kimi, yəni zamanında lakin qısaldılaraq qılınır. Eyni zamanda zərurət halında namazları birləşdirib də qılmaq caizdir.

Sual 22: Həccin ehkamları hansılardır?

Cavab: Həccin ehkamları Ərəfə dağında dayanmaq, Cəmaratda daş atmaq[4], Təvaf və Səy etmək, qurban kəsmək və saçı qısaltmaqdır.

Sual 23: Ərafat dağında edilən ibadətlər hansılardır?

Cavab: Ərafat dağına ərəfə günü, yəni Zülniccənin 9-cü günü gedilir. Bu zaman zəvvarlar üçün avtobus təşkil edilir. Eyni zamanda Ərəfədə yemək və çay da verilir. O səbəbdən özünüzlə çox əşya götürməyin. Yenə ən zəruri olan gigiyenik vasitələr, sabun, salfet və dəsmal və ən önəmlisi Minaya apardığınız yatağınızı və örtü gotürün. Bunlar sizə Ərəfatda deyil, Müzdəlifədə lazım olacaq.

Ərafata gedərkən yolda səsi ucaltmadan Təlbiyyə deyilir. Ərafatda da qadınlar ayrıca, amma daha böyük çadırlarda qalır. Ərafat duaların qəbul olunduğu ən fəzilətli yerdir. Ərafatda maksimum çox dua, zikr və dua etmək lazımdır. Ərafatda zöhr və əsr namazları birləşdirilir və bundan sonra məğrib namazına qədər dua zamanıdır. Fürsətdən yararlanmaq lazımdır. Effektli olmaq və unutmamaq üçün dualarınızı və dua edəcəyiniz insanların siyahısını bir dəftərə qeyd edə bilərsiniz.

Ərafatda oxunan ən fəzilətli dualardan biri “Lə İləhə İllƏllahu Vəhdəhu lə şərikə ləh. Ləhul mulku və ləhul hamdu və huvə alə kulli şey”in qadir”. Bundan başqa, çoxlu təkbir təsbih, istiğfar və həmd gətirilməsi lazımdır.

[4] Cəmaratla bağlı daha geniş məlumat olacaq

Sual 24: Ərəfəyə getməmək olarmı?

Cavab: Ərəfəyə getməyənin həcci batildir, yəni qəbul deyil. Çünki Peyğəmbərimiz (SƏllahu aleyhi və Sələm): “Həcc- Ərəfədir” demişdir. Ərəfənin vaxtı növbəti gün, yəni Zülhiccənin 10-u facr namazına qədərdir.

Sual 25: Ərafatdan nə zaman gedilir?

Cavab: Ərəfə günü axşam Məğrib namazından sonra Ərəfafdan Müzdəlifə deyilən yerə gedilir. Gedərkən özünüzlə əşyalarınızı, su və bir az yemək götürürsünüz. Yolda yenə səs ucalmadan Təlbiyyə deyilir. Müzdəlifədə dəstəmaz almaq bir az çətin olduğundan yaxşı olar ki, Ərəfatdan dəstəmaz alıb çıxasınız. Müzdəlifəyə gələn kimi, məğrib və işa namazları qısaldılaraq və birləşdirilərək qılınır. Müzdəlifədə tez yatmaq yaxşıdır, çünki növbəti gün ehkamların ən çox olduğu gündür.

Sual 26: Müzdəlifədən nə zaman çıxılır və hara gedilir?

Cavab: Səhər fəcr namazı Müzdəlifədə qılınır, dua, həmd və təkbirdən sonra Minaya gedilir. Minaya getmək üçün avtobuslar təşkil edilir. Yenə Minaya gedərkən səsi yüksəltmədən Təlbiyyə deyilir. Aldığınız yataqlar sizə daha sonra lazım olmadığından onları Müsdəlifədə qoyub gedə bilərsiniz.

Sual 27: Bayram günü, yəni Zülhiccənin 10-cü günü hansı əməllər edilir?

Cavab: İlk öncə Minaya qayıdan kimi özünüzə 7 ədəd daş toplayın. Daşlar təqribən fındıq boyda olmalı və gips və s. əsaslı olmamalıdırlar. Yəni həqiqi daş olmalıdır, ovxalanmamalıdır.

Bundan sonra gecikdirmədən ayaqla Minadan Camarata gedilir. Yolda sizə içmək üçün su lazım olacaq və bacardığınız qədər soyuq su götürün. Boşalmış su şüşələrinizi yolda olan su krantlarından da doldura bilərsiniz. Yolunuz uzun olduğundan məsləhətdir ki, ayağınıza çox rahat ayaqqabı geyinəsiniz. Mənə görə ən rahat aldığım ev ayaqqabısı (şəp-şəp) idi. Lakin ey ayaqqabınızı alarkən diqqətli olun ki, tikişsiz, yəni bötüv ayaqqabı olsun. Əks halda yolda ayaqqabınız cırıla, yaxud qopa bilər.

Camarata gedərkən yol boyu Təlbiyyə deyilir. Cəmarata çatanda Təlbiyyəni dayandırırsınız. Siz ən böyük (yəni sonuncu) Cəmarata gedib, bir-birinin ardınca 7 daş atırsınız. Hər dəfə daş atmazdan əvvəl “Allahu Əkbər” deyilir. Önəmli olan daşın Cəmarat ətrafındakı hovuza düşməsidir.

Daş atdıqda sonra qurban kəsilir. Qeyd edək ki, indi qurban kəsilməsi mərkəzləşdirildiyindən sizinlə bununla məşğul olmağa ehtiyacınız yoxdur. Yalnız zamanında qurban kəsilmək üçün yığılan pulu ödəməyiniz kifayətdir.

Növbəti ehkam saç kəsilməsidir. Kişilər çox zaman saçlarını elə yoldaca qırxırlar. Qadınlar isə rahatlıq üçün daha münasib olar Haram məscidi yanındakı tualetlərdə istifadə edə bilərlər.

Saç kəsildikdən sonra əsas həcc ehramından çıxılır və bu, 1-ci təhəllül adlanır.

Bundan sonra Təvaf üçün ayaqla Haram məscidinə gedirsiniz. Bu təvaf "ifadə" yaxud "ziyarət" təvafı adlanır. Qeyd edim ki, bəzi qrupların qaldıqları otel Haram məscidindən daha yaxın olduqda, onlar təvafdan öncə otelə girib, saçlarını orda kəsib, eyni zamanda ehtiyac varsa paltarlarını da dəyişərək, təvafa sonra gedə bilərlər. Əks halda təvaf üçün Haram məscidinə gedilərək, ilk öncə ordakı tualetlərdə saçın ucundan kəsilir, rahat dəstəmaz alınır, çünki təvaf üçün dəstəmaz şərtdir.

Təvaf eynilə ümrədəki kimi 7 dövrədən ibarətdir, lakin ilk təvafdan fərqli olaraq, ifadə təvafı və eyni zamanda digər bütün təvaflar zamanı ilk 3 dövrəni iti yerişlə getmək lazım deyil. Təvafdan sonra yenə İbrahim məqamında 2 rəkət namaz qılınır və Zəm-zəm suyundan içilir.

Təvafdan sonra eyni Ümrədə olduğu kimi Səfa və Mərvə arasında Səy edilir.

Bununla siz Həccin əsas ehkamlarını yerinə yetirmiş olursunuz və ihramdan çıxırsınız. Bundan sonra sizin üçün cinsi əlaqə və şəhvət yaradan hərəkətlər istisna (əli tutmaq istisna ola bilər, amma yenə diqqətli olmaq lazımdır), digər qadağaların hökmü ləğv edilir.

Bəzi qruplar təvafdan sonra birbaşa Minaya qayıdırlar. Bəziləri isə qaldıqlara otelə gedib, bir neçə saat dincəldikdən sonra Minaya qayıdırlar. Əgər otelə qayıdacaqsınızsa, o zaman otel açarını özünüzlə götürməyi unutmayın.

Sual 28: Bayram günü heyzli bacılar hansı əməlləri edirlər?

Cavab: Bayram, yəni Zülhiccənin 10-u heyzli bacılar təvaf xaric bütün əməlləri edə bilərlər. Yəni, Cəmarat, saç kəsmək, qurban kəsmək kimi. Bununla onlar da ihramdan çıxa bilərlər, lakin qüsl aldıqdan sonra hökmən Təvaf və Səyi də yerinə yetirməlidirlər.

Sual 29: Təşriq günləri nədir və əməlləri hasılardır?

Cavab: Bundan sonra ən az 2 gecə (Zülhiccənin 10-u və 11-i) Minada qalmalısınız. Bu gecələmə hər kəs üçün vacibdir və qalmayanlar kəffarə olaraq qoyun kəsib, Məkkə yoxsullarına paylamalıdır. Zülhiccənin 11, 12 və 13-ü təşriq günləri adlanır.

Minada olarkən özünüz üçün hər günə 21 ədəd olmaqla 3 gün üçün cəmi 63 daş toplayın.

Növbəti gün gün əyiləndən sonra (təqribən zöhr namazına 40 dəqiqə qalmış. Sünnət belədir ki, zöhr namazı zamanı orda olasınız) Cəmarata gedilir. Öncəki dəfədən fərqli olaraq bu dəfə hər 3 Cəmarata hərəsinə 7 daş atılıq. Hər daşı atarkən, "Allahu Əkbər" deyilir və daşlar hovuza düşməlidir. Hər 1 və 2-ci Cəmaratda daş atdıqdan sonra kənara çəkilib, üzü Qibləyə və əlləri qaldıraraq dua edirsiniz. Bu zaman istədiyiniz duanı edə, eyni zamanda bağışlanma diləyə bilərsiniz.

3-cü Cəmaratdan sonra dua edilmir və yenidən Minaya geri dönürsünüz.

Eyni qayda Zülhiccənin 12-ci günü də təkrar edilir. Bununla siz tam ihramdan çıxırsınız və bütün qadağalar götürülür.

Sual 30: Zülhiccənin 12-ci gecəsi Minada qalmaq şərtdirmi və 13-cü gün hansı əməllər edilir?

Cavab: Zülhiccənin 12-ci gecəsi Minada qalmaq Peyğəmbərin (SƏllahu Aleyhi və səlləm) sünnəsidir, lakin fərz deyil və imkanı olmayanlar otələ qayıda bilərlər. Yalnız onlar özləri qalmasa belə, 13-cü gün Camaratda onların əvəzinə daş atmasını başqalarından xahiş edə bilərlər. Eyni zamanda 11 və 12-ci günlər də yaşlılar, xəstələr daş atmasını başqasından xahiş edə bilərlər. Bu zaman daş atan birinci öz əvəzinə, sonra başqalarının əvəzinə atır.

Zülhiccənin 13-cü günü Camarata gedərkən, Minada olan bütün əşyalarınızı özünüzlə götürürsünüz, çünki geriyə dönməyəcəksiniz. Cəmaratda daş atdıqdan sonra bir az ayaqla yeriyərək taxi dayanacağına gedilir və taksiyə minib otelə qayıdırsınız. Taksi tutarkən çalışın grup şəklində tutasınız ki, daha sərfəli olsun.

Sual 31: Vida təvafı nədir?

Cavab: Vida təvafı Məkkədən çıxarkən ən son edilən əməldir. Vida təvafından sonra yemək, tualet və çimmək icazəli olsa da, alış-veriş və yatmaq qadağandır. Vida təvafı da eyni digər təvaflar kimi yerinə yetirilir. Vida təvafı edib, Məkkədən çıxandan sonra Mədinəyə gedərkən artıq yolda yatmaq olar.

Sual 32: Əgər heyz müddəti uzanarsa və ümrə edilməyibsə, ehkamlar necə yerinə yetirilir?

Cavab: Heyz müddəti uzun olarsa, və bacı ümrəni belə etməyib həcc üçün niyyət edərsə, o zaman bacı həccin təvaf və səy xaric bütün ehkamlarını yerinə yetirir. Qüsl aldıqdan sonra həcc üçün təvafını və səyi edir. Bundan sonra Vida təvafına qədər bacı “Aişə” məscidi deyilən (Haram məscidinin 7-8 km-də) yerə gedir və orda Ümrə üçün niyyət edərək, Harama qayıdır, təvaf və səy əməlini yerinə yetirir. Saçından da kəsərək, ihramdan çıxır. Bununla həm həcc, həm ümrəni yerinə yetirmiş sayılır.

Eyni zamanda bacı Həcc zamanı Təməttu həcc niyyətini Qiran həcc niyyətinə dəyişərək, həcc və ümrə üçün cəmi bir təvaf və səy də edə bilər.

Faydalı qeydlər

1. Mətn içində qeyd edildiyi kimi, özünüzlə rahat ev ayaqqabısı götürməyiniz məsləhətdir
2. Özünüzlə dərman götürün və dərmanlar Minaya gedərkən də aparın. Ən çox lazım olan dərmənlar oksalin maz, antibiotiklər, öskürək dərmanı, qızdırma və ağrıkəsici (nimesil yaxşı vasitədir), teraflue və bənzəri tozlar, antihistamin, ürək dərmanı, linex, tetratsiklin və lorinden mazdır.
3. Bel çantası (backpack) sizə çox lazım olacaq. İstər Minaya gedərkən, istərsə də Təvaf zamanı çox rahat istifadə edə bilərsiniz.
4. Haram məscidinin içində geyinmək üçün rezin, arxası bağlı ayaqqabı götürsəniz, ayaqlarınız islanmaz (Binə və Sədərək TM-də satılır). Onları özünüzlə məscidə aparın
5. Təvafa gedərkən özünüzlə namaz palazı aparın
6. Özünüzlə pingvin poşet, marli, yaş salfet də götürün.
7. Məkkəyə gedərkən Ciddə hava limanında bir neçə saat gözləyə bilərsiniz. O səbəbdən özünüzlə yola bir az yemək götürün və həmin yeməyi baqaja verməyin.
8. Qadınlar və kişilər həcc zamanı çətirdən istifadə edə bilərlər.
9. Minadan Camarata gedərkən özünüzlə çoxlu su götürün
10. Həccdə gün eynəyində istifadə etmək olar və bəzi günlər eynək çox gərəkli olur
11. Əgər alış-veriş planınız varsa, o zaman bunu gedənə yaxın edin, çünki ilk günlər qiymətlər dəhşətli dərəcədə şişirdilir. Lakin Vida təvafına qədər alış verişinizi bitirməlisiniz. Haram məscidinin “King Abdul-Aziz” qapısından çıxaraq siz, Clock Tower mərkəzinin yanında olacaqsınız. Unutmayın ki, alış veriş zamanı endirim tələb etmək lazımdır.

12. Həccə hazırlaşarkən dualarınızı bir dəftərə yazıb özünüzlə götürsəniz çox faydalı olur. Eyni zamanda Qahtaninin "Həcc, Ümrə və ziyarət" bələdçisi kitabını tapa bilsəniz, arxasında Quran və Sünnədən çox gözəl dualar var.
13. Həccə gedərkən özünüzlə Quran götürməyə ehtiyac yoxdur, çünki oteldə və bütün məscidlərdə Quran olur.